# Türkiyədə keçirilən TEKNOFEST festivalı yekunlaşıb



***Avqustun 30-da Türkiyənin Samsun şəhərində işinə başlamış dünyanın ən böyük Aerokosmik və Texnologiya Festivalı – TEKNOFEST missiyasını tamamlayıb. Festival Türkiyənin "Texnologiya Takımı Vakfı"nın (T3 Vakfı), Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilib. TEKNOFEST–2022 Aerokosmik və Texnologiya Festivalında Azərbaycanı 16 komanda təmsil edib. Həmin komandalar bu il mayın 26-29-da Bakıda keçirilmiş "TEKNOFEST Azərbaycan" tədbirinin qalibləridir.***

Festival çərçivəsində texnologiya, elm, aviasiya-uçuş şouları, sərgilər, toplantılar, seminarlar, mükafatlandırma mərasimləri, səhnə şouları və konsert proqramları keçirilib. Final mərhələsində bu kimi bir çox tədbirlərlə yanaşı, statistik sərgi sahəsində Türkiyənin "Bayraktar Kızılelma", "Hürjet", "Akıncı" pilotsuz uçuş aparatı (PUA), "Uçbey" buludaltı PUA-ları, "F-16", "Bayraktar TB2" PUA, "Bell 429", "Melle" hərbi təyyarəsi kimi bir çox hava vasitəsi ziyarətçilərə yaxından göstərilib. Bundan əlavə, festivalın final mərhələsində Türkiyə Hərbi Hava Qüvvələrinin "Solo Türk" və "Türk Ulduzları"nın hava şou proqramları nümayiş etdirilib.

Sentyabrın 3-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan festivalda çıxış edərək, tədbirin əhəmiyyətindən, Azərbaycan-Türkiyə əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən söz açıb.

Türkiyədə keçirilən builki TEKNOFEST-də 40 əsas sahə və 99 fərqli kateqoriya üzrə müxtəlif yarışlar keçirilib. Tədbir Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi, eləcə də Selçuk Bayraktarın rəhbərlik etdiyi "Türkiye Teknoloji Takımı" – T3 Vəqfinin rəhbərliyi altında ölkənin 100-dən çox qurumunun birgə təşkilatçılığı ilə baş tutub.

Türkiyənin qabaqcıl dövlət və özəl sektor şirkətlərinin iştirakı ilə son zamanlar inkişaf etdirilən milli texnologiya məhsullarının sərgiləndiyi TEKNOFEST-də ölkəmiz geniş heyətlə təmsil olunub. Azərbaycandan bir sıra universitet və dövlət qurumlarının qatıldığı tədbirdə ölkəmizi rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rövşən Rüstəmov təmsil edib.

TEKNOFEST-də bir neçə komanda ilə Bakı Dövlət Universitetinin və Xəzər Universitetinin tələbələri iştirak ediblər. Festival çərçivəsində ilk dəfə Türkiyədə yaşayan həmvətənlərimizə dövlət xidmətlərinin çatdırılması məqsədilə Azərbaycanın "Səyyar ASAN" xidmət avtobusu fəaliyyət göstərib.

Festivalda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzinin (EHİM) təmsilçisi "Safe Karabakh" komandası da iştirak edib. Startapların təqdimat mərasimində "Safe Karabakh" komandası haqqında ətraflı məlumat verilib. Eyni zamanda, stendə yaxınlaşan ziyarətçilər Vətən müharibəsi, post-müharibə dövründə mövcud vəziyyət və sözügedən layihənin əhəmiyyəti barədə məlumatlanıblar. Türkiyəli startapçılar ilə təcrübə mübadiləsi aparan təmsilçilərimiz həmçinin müxtəlif təlimlərdə iştirak ediblər. Komanda cari ilin 26-28 may tarixində Bakıda ilk dəfə olaraq baş tutan "TEKNOFEST-Azərbaycan" çərçivəsində keçirilən "Smart Qarabağ" hakatonunun qalibi seçilib. Komanda tərəfindən yaradılan "Safe Karabakh" mobil tətbiqi vətəndaşlara bir neçə imkan yarada bilir. İlk növbədə, vətəndaşların təhlükəli ərazilərə yaxınlaşdıqda bu barədə onlara və aidiyyəti qurumlara bildirişlər göndərilməsi, əlavə olaraq, vətəndaşlara ailə üzvlərinin təhlükəsiz zonada olduqlarına əminlik yarada bilir.

EHİM-dən "Xalq qəzeti"nə verilən məlumata görə, digər bir funskionallıq ondan ibarətdir ki, vətəndaşların mobil tətbiqdən istifadə edərək, getmək istədikləri yerə təhlükəsiz marşrutları əldə etməsi planlaşdırılır. Nəzərə alsaq ki, bəzən minadan təmizlənmiş ərazilərdə də partlamamış döyüş sursatları və mərmilər müşahidə oluna bilər. Belə hal ilə rastlaşan vətəndaş bu barədə tətbiq vasitəsilə "SOS" siqnalı verir. Bununla da həmin yer avtomatik olaraq təhlükəli zona kimi qeyd edilir. Əlavə olaraq, vətəndaş rastlaşdığı naməlum obyektin şəklini də çəkərək araşdırılması üçün müraciət formasında göndərir.

Festival ərəfəsində Türkiyənin rəsmiləri və digər qonaqlar Azərbaycan pavilyonunu ziyarət etmiş, startaplar tərəfindən təqdim olunan layihələrlə yaxından tanış olmuşlar. "Baykar" şirkətinin baş direktoru Haluk Bayraktar bildirdi ki, Türkiyə milli texnologiya hərəkatını yalnız öz coğrafiyasında deyil, bütün dost və qardaş ölkələrdə əks etdirilməsinin və həyata keçirilməsinin lazım olduğunu düşünür. Azərbaycandan sonra bu ənənəni Pakistan, İndoneziya kimi ölkələrdə davam etdirmək niyyətindəyik.

***Rizvan FİKRƏTOĞLU***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 6 sentyabr.- S.6.